

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 24 (21.685)

3 fevral 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Fevralın 2-də Bakının Niyazi küçəsində yerləşən parkda görkəmli dirijor, SSRİ Xalq artisti, maestro Niyazinin abidəsinin açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı maestro Niyazinin abidəsinin açılışını etdi.

Prezident İlham Əliyev abidənin önünə gül dəstəsi qoydu.

Abidənin hündürlüyü 3, pyedestalının hündürlüyü isə 1 metrə yaxındır. Heykəlin üst plitəsi royalın qapağı formasındadır. Abidənin pyedestalı isə qara qranitdən hazırlanıb. Bürüncdən hazırlanan heykəlin müəllifi Xalq rəssamı Ömər Eldarov, memarı isə Əməkdar memar Elbay Qasımzadədir.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

Sonra Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli, bəstəkar, Xalq artisti Faiq Sücəddinov, beynəlxalq müsabiqələr laureatı, dirijor Əyyub Quliyev, abidənin müəllifi, Xalq rəssamı, heykəltəraş Ömər Eldarov çıxış etdilər.

Dövlətimizin başçısı mərasimdə iştirak edən mədəniyyət və incəsənət xadimləri ilə söhbət etdi.

Sonda xatirə şəkli çəkdirildi.

## Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Zurab Pataradze:

### Bizim bugünkü dostluq və qardaşlıq əlaqələrimiz nəsildən-nəslə ötürülərək gələcək üçün mühüm əhəmiyyət kəsb edəcək

*Xəbər verdiyimiz kimi, fevralın 1-də Gürcüstanın Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Zurab Pataradzenin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər edib. Səfər çərçivəsində nümayəndə heyətinin üzvləri muxtar respublikanın təhsil, səhiyyə, mədəniyyət müəssisələri ilə, Naxçıvan Biznes Mərkəzində yerli müəssisələrin istehsal etdiyi məhsullarla tanış olublar.*



Qonaqlar əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Sonra Duzdağ Fizioterapiya Mərkəzinə gələn qonaqlara məlumat verilib ki, 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan mərkəzdə bronxial-astma və ağciyər bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunur. 300 yerlik xəstəxanada temperatur sabitdir. Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması isə xəstəxanada rütubətin səviyyəsini normal saxlayır. Müalicə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan mərkəzə dünyanın bir çox ölkələrindən müraciətlər olur. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasında səhiyyə sahəsində həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2012-ci ildən etibarən hər il tənəffüs yolu xəstəliklərindən əziyyət çəkən acarıstanlı uşaqların Duzdağ Fizioterapiya Mərkəzində müalicəsi təşkil edilir.

Naxçıvan Dövlət Universiteti ilə tanışlıq zamanı bildirilib ki, hazırda bu təhsil müəssisəsinin dünyanın 80-dən çox tanınmış ali məktəbi ilə sıx əlaqəsi var. Qeyd olunub ki, Batumi Dövlət Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında bağlanmış müqaviləyə uyğun olaraq, hər iki ali təhsil müəssisəsi 2012-ci ildən əməkdaşlıq edir. Universitetlərarası tələbə və müəllim mübadiləsi həyata keçirilir. Hər iki muxtar respublikanın elm və təhsil müəssisələrində keçirilən beynəlxalq elmi konfranslarda gürcü və azərbaycanlı alimlərin iştirak və çıxış etmələri humanitar sahədə əlaqələri daha da genişləndirib.

Nümayəndə heyətinin üzvləri sonra Naxçıvan Dövlət Musiqili Dram Teatrında olublar. Teatrla tanışlıqdan sonra qonaqlar Naxçıvan Dövlət Filarmoniyasının ifasında konsert proqramına baxıblar.

Günün sonuna doğru Naxçıvan Biznes Mərkəzinə gələn qonaqlara mərkəzin fəaliyyəti və muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəriciləri barədə məlumat verilib. Qeyd olunub ki, mərkəzdə muxtar respublikada istehsal olunan müxtəlif növ ərzaq və sənaye məhsulları, əl işləri və rəsm əsərləri sərgilənir. Həmçinin burada müxtəlif tədbirlər, biznes forumlar, işgüzar görüş və konfranslar keçirilir. Sərgi salonunda yüzə yaxın müəssisənin müxtəlif növdə və çeşiddə məhsulu, sənətkarlar tərəfindən hazırlanan əl işləri və rəsm əsərləri nümayiş olunur. Sahibkarlığın inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 366 növdə məhsul istehsal olunur. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbatın yerli imkanlar hesabına ödənilməsi təmin edilib. Görülən işlər ixracın həcminin artmasına da öz təsirini göstərib. Artıq muxtar respublikada istehsal olunan məhsullar dünyanın bir çox ölkələri ilə yanaşı, Gürcüstana və onun Acarıstan Muxtar Respublikasına da ixrac olunur.

Acarıstan Muxtar Respublikası Hökumətinin sədri Zurab Pataradze muxtar respublikaya səfərinin yekununda kütləvi informasiya vasitələrinə müsahibə verib. O deyib: "Mən əvvəlcə səfərə dəvətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə öz minnətdarlığımı bildirirəm. Bu, mənim Naxçıvan Muxtar Respublikasına hökumət sədri kimi ilk rəsmi səfərimdir. Bildiyiniz kimi, hər iki muxtar respublika arasında yaxşı əməkdaşlıq münasibətləri mövcuddur. Səfərimin əsas məqsədi də Naxçıvanla daha yaxından tanış olmaq və gələcək birgə planlarımızla bağlı mövcud vəziyyəti dəyərləndirməkdir. Bununla yanaşı, qeyd etmək istərdim ki, ölkələrimiz arasında gözəl əlaqələr var. Azərbaycan və Gürcüstan yaxın strateji tərəfdaşdır və hər iki ölkənin iştirakı ilə bir çox mühüm layihələrə imza atılıb. Bildiyiniz kimi, bu il regionda ən mühüm layihələrdən biri olan Bakı-Tbilisi-Qars dəmir yolu fəaliyyətə başlayacaq. Bu da bizim çoxtərəfli əməkdaşlığımıza daha bir töhfə verəcək. Bundan əlavə, bizim əlaqələrdə kənd təsərrüfatı, turizm, biznes, səhiyyə, təhsil və digər sahələrdə zəngin potensial və təcrübəmiz var. Biz naxçıvanlı dostlarımızı Gürcüstana dəvət edirik, gəlib ora ilə yaxından tanış olsunlar. Eyni zamanda bizim vətəndaşlarımız, iş adamlarımız Naxçıvana gələrək bu regionla tanış olsunlar, sizin gözəl teatrlarınızda, digər mədəniyyət müəssisələrinizdə olsunlar. Hesab edirəm ki, bizim hazırkı və gələcək planlarımız üçün böyük potensialımız var və bundan istifadə edə biləcəyik.

Naxçıvanla bağlı təəssüratlarıma gəldikdə isə onu deyə bilərəm ki, Naxçıvan çox gözəl şəhərdir, insanları mehriban və qonaqpərvərdirlər. Düşünürəm ki, bizim bugünkü dostluq və qardaşlıq əlaqələrimiz nəsildən-nəslə ötürülərək gələcək üçün mühüm əhəmiyyət kəsb edəcək. Bu münasibətlər həm də bizim ölkələrin yürütdüyü dövlət siyasətinin əsas hədəfini təşkil edir. Bununla yanaşı, hesab edirəm ki, qarşılıqlı əlaqələrimizdə birbaşa aviareyslərin fəaliyyəti çox vacibdir. Çünki birbaşa təmaslar yaratmaq əlaqələrimizi daha da genişləndirəcək. Eyni zamanda yay mövsümündə naxçıvanlı dostlarımızı Batumidə qəbul etməyə hazırıq. Mən bu əlaqələrimizin inkişafında diplomatik nümayəndəliklərin rəhbərlərinə də öz minnətdarlığımı bildirirəm. Azərbaycanın Batumidəki Baş konsulu bizi bu səfərdə müşayiət edir. Düşünürəm ki, bu səfərimiz mövcud əlaqələrimizin daha da inkişaf etdirilməsinə öz töhfəsini verəcək".

**"Şərq qapısı"**

## Gənclər Günü qeyd olunub

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Gənclər Mərkəzində 2 fevral – Gənclər Gününə həsr olunmuş tədbir keçirilib.***



Tədbirdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən gənclər siyasətindən, bu sahədə əldə olunan nailiyyətlərdən danışıb.

Bildirilib ki, gənclərin intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli təşkili məqsədilə müxtəlif təyinatlı obyektlər tikilərək və ya əsaslı təmir olunaraq onların istifadəsinə verilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı gənclərə göstərilən diqqət və qayğının məntiqi davamıdır. Bu fərmanla Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı" təsis edilib, müxtəlif sahələr üzrə fərqlənən istedadlı yeniyetmə və gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün əlverişli şərait yaradılıb. Bu il də iki nəfər istedadlı gəncin adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılıb və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi təqaüdünə layiq görülüblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirib ki, son illər gənclərimizin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının uğurla reallaşması, bütövlükdə, gənclər siyasətinin həyata keçirilməsi istiqamətində görülən tədbirlərdir.

Qeyd olunub ki, indi muxtar respublikamızda gənclər milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, yeni ideyaların təşəbbüskarı və dövlət idarəçiliyində aparıcı qüvvə kimi formalaşır, böyük nailiyyətlər əldə edirlər.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək deyib ki, muxtar respublikada həyata keçirilən uğurlu dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən biri də gənc ailələrə və gənc qadınlara göstərilən dövlət qayğısıdır. Gənc ailələrin asudə vaxtının səmərəli təşkili, sosial problemlərinin həlli, xüsusilə mənzil şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhərində gənclərin güzəştli şərtlərlə mənzil sahibi olması üçün yeni yaşayış kompleksləri tikilərək istifadəyə verilib.

Bildirilib ki, gənclərin nikahdan öncə tibbi müayinəyə cəlb edilməsinə, müasir səhiyyə ocaqlarının yaradılmasına, ailələrin sağlamlığına ciddi önəm verilir.

Çıxış edənlər gənclər üçün yaradılan şəraitə görə Ali Məclisin Sədrinə öz minnətdarlıqlarını ifadə ediblər.

Sonra Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclər təşkilatçılar tərəfindən hədiyyələrlə mükafatlandırılıblar.

Tədbir Naxçıvan Musiqi Kollecinin "Gənclik" instrumental ansamblının konsert proqramı ilə davam etdirilib.

**Ceyhun MƏMMƏDOV**

***Bankların iqtisadi inkişafda və pul-kredit münasibətlərinin tənzimlənməsində mühüm rolu vardır. Dünyadakı mürəkkəb iqtisadi şəraitdə bankların verdiyi qərarlar cəmiyyət tərəfindən maraqla izlənilir, iqtisadi mənafelərin qorunması baxımından bu vacib institusional qurumlar qarşısında mühüm məsuliyyət yaranır. Ötən il Naxçıvan Muxtar Respublikasının ümumi inkişafında bank sektoru mühüm rol oynayıb. Muxtar respublikamızda özəl sektora maliyyə dəstəyinin göstərilməsində, yeni layihələrin həyata keçirilməsində, əhali əmanətlərinin banklara cəlb olunmasında, elektron xidmətlərin tətbiqində və əhalinin maliyyə savadlılığının artırılması sahəsində bank qurumları qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə çalışıb. Mövcud konyunktura mürəkkəb olsa da, banklar ümumi strateji xətdən kənarlaşmayıb, pul dövriyyəsi, valyuta bazarı kimi sahələrdə vəziyyətə tam nəzarət olunub. Muxtar respublikanın bank sektorunda görülmüş və görüləcək işlər barədə oxucularımızı maraqlandıran suallara cavab almaq üçün Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədova müraciət etdik:***

# Naxçıvan Muxtar Respublikasının ümumi inkişafında bank sektoru mühüm rol oynayır




***– Səbuhi müəllim, 2016-cı ildə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar öz işini necə qurub?***

– İqtisadi inkişafın əsas göstəricilərindən olan real sektorun inkişaf səviyyəsi bank-kredit müəssisələrinin də səmərəli fəaliyyətindən çox asılıdır. Bu baxımdan 2016-cı il Naxçıvan Muxtar Respublikasında dinamik inkişaf ili kimi yadda qalıb və bu nailiyyətlərin əldə olunmasında bank sektoru fəal iştirak edib.

Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları fəaliyyətlərini tədbirlər planına uyğun olaraq qurublar. Bu qurumlar tərəfindən 1 yanvar 2017-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşunun həcmi 109 milyon 195 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşları 7 milyon 937 min manat, uzunmüddətli kredit qoyuluşları isə 101 milyon 258 min manat təşkil edir. Banklar və kredit təşkilatları tərəfindən 2016-cı il ərzində 43 milyon 355 min manat kredit verilib ki, bu vəsaitlərin 10 milyon 512 min manatı qısamüddətli, 32 milyon 843 min manatı uzunmüddətli kreditlərin payına düşür. Bu vəsaitin 9 milyon 911 min manatı kənd təsərrüfatı, 10 milyon 322 min manatı sənaye, 260 min manatı tikinti, 20 min manatı balıqçılıq təsərrüfatı sahələrinə yönəldilib. 3 milyon 854 min manat kommersiya, 4 milyon 435 min manat nəqliyyat, 2 milyon 78 min manat ipoteka kreditləri verilib. Kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə isə 12 milyon 475 min manat vəsait yönəldilib.

***– Özəl sektorda işgüzar fəallığın dəstəklənməsi baxımından banklar hansı işləri görüblər? Verilmiş kreditlərin prioritet istiqamətləri hansılardır?***

– Kredit qoyuluşları, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilib ki, bu da kənd təsərrüfatı, yerli sənaye və istehlak malları istehsalının həcminin artması, yeni iş yerlərinin yaranmasında əhəmiyyətli rol oynayıb. Kreditləşmədə əsas məqsəd aqrar sektorun inkişafı, ixraca yardım və daxili bazarın müdafiəsi, kiçik və orta sahibkarlığın inkişafına nail olmaqdır. Aqrar sahənin inkişafı üçün verilmiş kreditlər ümumi portfelin 22,9 faizini və ya 9 milyon 911 min manatını təşkil edib. Bu isə, öz növbəsində, ənənəvi istehsal və kiçik emal sahələrinin yaradılmasına stimul olub. Kredit vəsaitləri, əsasən, toxum və əkin materiallarının, kiçik emal avadanlıqlarının alınmasına, aqrotexniki tədbirlərin aparılmasına, heyvandarlığın inkişafına yönəldilib. Ümumilikdə, verilmiş kreditlərin 42,2 faizini kiçikhəcmli kreditlər təşkil edir. Gələcəkdə bu cür kreditlərin verilməsinin həcminin artırılması istiqamətində lazımi işlər aparılır.

Onu da qeyd etmək lazımdır ki, muxtar respublikada təklif edilən faiz dərəcəsi ölkədə iqtisadi rayonlar arasında kreditlər üzrə tətbiq olunan ən aşağı faiz dərəcələridir.

***– Biz Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin məlumatlarından tez-tez bank faizlərinin aşağı salındığını eşidirik. Bu sahədə yenilik varmı?***

– Faiz dərəcələrinin istehlakçılar üçün optimal səviyyədə olması kreditlərin əlçatanlığını artıran əsas amildir. Hazırda ölkəmizdəki kredit bazarına nəzər saldıqda görürük ki, muxtar respublikamızda kreditlər üzrə tətbiq edilən orta faiz dərəcələri Azərbaycanın digər iqtisadi rayonları ilə müqayisədə ən aşağı səviyyədədir. Belə ki, Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatına görə, 1 dekabr 2016-cı il tarixə təklif olunan kreditlər Abşeron iqtisadi rayonu üzrə 16,7 faiz, Aran iqtisadi rayonu üzrə 22,6 faiz, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 22,1 faiz, Gəncə-Qazax iqtisadi rayonu üzrə 19,5 faiz, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 19,8 faiz, Lənkəran iqtisadi rayonu üzrə 22,4 faiz, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 22 faiz, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 17,9 faiz, Naxçıvan Muxtar Respublikası üzrə isə 12,6 faiz təşkil edir.

Muxtar respublikada kredit faizlərinin ölkə üzrə ən aşağı göstəricilər olmasına təsir edən mühüm amil "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti tərəfindən aşağı faiz dərəcələri ilə təklif edilən kreditlərdir. Adıçəkilən bankın Müşahidə Şurasının yeni qərarı ilə 18 yanvar 2017-ci il tarixdən kreditlərin faiz dərəcələri yenidən aşağı salınıb. Belə ki, yeni qaydalara görə, kənd təsərrüfatı üzrə heyvandarlığa 15, taxılçılığa, kartofçuluğa, bostan, tərəvəz və qarğıdalı kimi əkinçilik sahələrinə 13 faizlə kreditlər verilir. Muxtar respublika sakinləri istehlak kreditlərini 17, kart kreditlərini 18, bankın öz vəsaiti hesabına verilən ipoteka kreditlərini isə 10 faizlə götürə bilərlər. Onu da qeyd etmək lazımdır ki, ipoteka krediti üzrə faiz dərəcəsinin aşağı salınması Naxçıvanbank tərəfindən əvvəlki illərdə verilmiş kreditlərə də şamil olunur.

Naxçıvanda verilən kreditlər üzrə faizlər "annuitet" üsulla hesablanır. Bu da vətəndaşların əldə etdikləri vəsaitlər üçün ödəyəcəkləri real faiz dərəcəsinin aşağı düşməsinə səbəb olur. Kreditlərin faktiki illik faiz dərəcələri kənd təsərrüfatı üzrə 6,5-7 faiz, istehlak kreditləri üzrə 8,5-9 faiz, daxili ipoteka kreditləri üzrə 5 faiz təşkil edir.

Muxtar respublikada həyata keçirilən kreditləşmə işində 2016-cı ildə Ali Məclis Sədrinin müvafiq Fərmanı ilə yaradılan "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti vəsaitləri hesabına verilən 4-8 faizli, uzunmüddətli kreditləri də qeyd etmək lazımdır. Belə ki, bu kreditlər muxtar respublikamızda əhalinin mənzil təminatını yaxşılaşdırmaqla bərabər, real sektorun da inkişafına xidmət edir.

***– Günümüzün tələbi olan elektron bank xidmətlərinin genişləndirilməsində nə kimi irəliləyişlər vardır və hansı nəticələr əldə olunub?***

– Ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilən "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"da bank sektoru qarşısına mühüm vəzifələr qoyulub. Bu istiqamətdə görülmüş tədbirlər nəticəsində 1 yanvar 2017-ci il tarixə POS-terminalların sayı 556-sı Naxçıvan şəhəri, 646-sı isə rayon və kənd mərkəzlərində olmaqla, 1202 ədədə çatdırılaraq bu mühüm ödəniş alətlərinin sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə 158 ədəd artıb. Bankomatlara gəldikdə isə 1 yanvar 2017-ci il tarixə 56-sı Naxçıvan şəhəri, 43-ü rayon və kənd mərkəzlərində olmaqla, muxtar respublikada 99 ədəd bankomat fəaliyyət göstərir.

Əhalini nağdsız ödənişlərdən istifadəyə təşviq etmək məqsədilə Vergilər Nazirliyi ilə birgə keçirilmiş "Nağdsız ödəyin, hədiyyə qazanın" həvəsləndirici tədbir çərçivəsində 2016-cı il ərzində 435 nəfər muxtar respublika sakininə ümumi dəyəri 30 min manat olan müxtəlif qiymətli hədiyyələr verilib.

Proqramın uğurlu icrası nəticəsində ötən il nağdsız ödəniş dövriyyəsi 27 milyon 701 min manata çatdırılıb. Bu, 2015-ci il ərzindəki göstərici ilə müqayisədə 8 milyon 827 min manat çoxdur. Aparılmış əməliyyatların 17 milyon 527 min manatı internet vasitəsilə həyata keçirilib. 2016-cı il ərzində muxtar respublika üzrə kommunal xidmət müəssisələrində POS-terminallar vasitəsilə 3 milyon 488 min manat məbləğində vəsait yığılıb. Gələcəkdə nağdsız hesablaşmaların əhatə dairəsinin genişləndirilməsi və ödəniş həcminin artırılması istiqamətində tədbirlər davam etdiriləcək.

***Bu sahədə aparılan maarifləndirmə işi barədə də oxucularımıza məlumat verərdiniz.***

Nağdsız ödənişlərin həcminin artırılması üçün infrastrukturun yaradılması ilə yanaşı, ən təsiredici metodlardan biri də məhz maarifləndirici tədbirlərin və treninqlərin keçirilməsidir. Bu istiqamətdə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi aidiyyəti dövlət qurumları ilə birgə müxtəlif seminar və treninqlər təşkil edib.

2016-cı il ərzində İqtisadiyyat Nazirliyi və Vergilər Nazirliyi ilə birgə muxtar respublikada fəaliyyət göstərən sahibkarların iştirakı ilə tədbirlər keçirilib.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi və Vergilər Nazirliyinin əməkdaşlarının iştirakı ilə muxtar respublikada fəaliyyət göstərən orta ixtisas və ümumtəhsil məktəblərində nağdsız ödəniş vərdişlərinin aşılanması, onun faydalarının öyrədilməsi istiqamətində "Nağdsız ödənişlər" adlı silsilə tədbirlərin keçirilməsinə başlanılıb.

Ümumilikdə, 2016-cı il ərzində Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən keçirilən maarifləndirmə tədbirlərinin auditoriyasını muxtar respublikada fəaliyyət göstərən sahibkarlar, ali və orta ixtisas məktəblərində təhsil alan tələbələr və bank sektorunun nümayəndələri olmaqla, 550 nəfər əhatə edib, iştirakçılar maliyyə savadlılığı, nağdsız ödənişlər, bu sahədə görülən işlər və tətbiq edilən yeniliklər barədə məlumatlandırılıb.

***– Gələcək planlarınız nədir? Muxtar respublikanın bank qurumları hansı hədəflərə çatmağı müəyyənləşdirib?***

– Maliyyə sabitliyinin təmin olunması qarşımızda duran əsas vəzifədir. Əminik ki, neçə illərdir həyata keçirilən tədbirlərin nəticəsi olaraq bu il nağdsız hesablaşmaların həcmi daha da artırılacaq. Maliyyə savadlılığının artırılması, yüksək ödəniş mədəniyyətinə malik cəmiyyətin formalaşdırılması əsas hədəflərimizdəndir.

*Müsahibə üçün sağ olun.*

✍ **Əli CABBAROV**

## Ötən il Kəngərli rayonunda 174 daimi iş yeri yaradılıb

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən uğurlu islahatlar iqtisadiyyatın bütün sahələrinin dayanıqlı inkişafını təmin edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın uğurlu icrası işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradıb, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaranların sosial müdafiəsinin güclənməsinə geniş imkanlar açıb. Bu istiqamətdə həyata keçirilən tədbirlər Kəngərli rayonunda da diqqət mərkəzində saxlanılıb.

Rayonda sahibkarlığın inkişafı yeni iş yerlərinin açılmasına və əhali gəlirlərinin artmasına öz təsirini göstərib. Adıçəkilən dövlət proqramının uğurlu icrası nəticəsində 2016-cı ildə rayonda 178 yeni iş yeri yaradılıb ki, bunun da 174-ü və ya 97,8 faizi daimi iş yeridir. Kəngərli Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, 2016-cı il ərzində rayonda 282 nəfər işaxtaran vətəndaşdan 264 nəfəri işlə təmin olunub. 27 nəfər peşə hazırlığına cəlb olunub, 22 nəfər ictimai işlərə göndərilib. Məlumatda o da qeyd olunur ki, ötən il rayonda 2 əmək yarmarkası keçirilib, 53 şəxsə göndəriş verilib, 50 nəfər işlə təmin olunub. Naxçıvan şəhərində təhsil və səhiyyə işçiləri üçün keçirilən yarmarkalarda rayon sakinlərindən 47 nəfəri Kəngərli rayonunun təhsil və səhiyyə müəssisələrində daimi işlə təmin edilib.

## Smartkarttipli qaz sayğaclarının quraşdırılması davam etdirilir

*Qış mövsümündə idarə, müəssisə və təşkilatların fasiləsiz fəaliyyət göstərməsini və əhalinin normal yaşayışını təmin edən əsas amillərdən biri də abonentlərin fasiləsiz və təhlükəsiz təbii qazla təmin olunmasıdır.*



Qeyd edək ki, bu istiqamətdə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib. Son illər muxtar respublikamızda həyata keçirilən irimiqyaslı layihələr digər sahələrdə olduğu kimi, abonentlərin fasiləsiz və təhlükəsiz təbii qazla təminatına da əlverişli şərait yaradıb. Naxçıvan şəhərindən, rayon mərkəzlərindən başlamış ucqar dağ və sərhəd kəndlərinədək bütün yaşayış məntəqələri qazlaşdırılıb.

"Naxçıvanqaz" İstehsalat Birliyindən verilən məlumata görə, abonentlərin davamlı və dayanıqlı təbii qazla təminatı üçün qaz təchizatı sisteminə texniki baxış keçirilib, təbii qaz nəqlinin soyuq hava şəraitinə uyğun gələn texnoloji rejimdə həyata keçirilməsi üçün tədbirlər görülüb. Ümumiyyətlə, abonentlərin, o cümlədən inzibati və ictimai yaşayış binalarını istiliklə təmin edən qazanxanaların fasiləsiz və təhlükəsiz təbii qazla təmin olunmasına, baş verə biləcək hər hansı qəzanın vaxtında aradan qaldırılması üçün qəza briqadalarının 24 saat fəaliyyət göstərməsinə hərtərəfli şərait yaradılıb.

Müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla sərf olunan təbii qazın dəqiq uçotunun aparılması məqsədilə sayğacların quraşdırılması işi də vaxtında başa çatdırılıb. 2015-ci ilin iyul ayından isə Naxçıvan şəhərində daha müasir, ön ödənişli, smartkarttipli sayğacların quraşdırılmasına başlanılıb.

Bu məqsədlə həyata keçirilən tədbirlər cari ildə də davam etdirilir. Naxçıvan şəhərində smartkarttipli qaz sayğaclarının quraşdırılmasına başlanılması insanlar tərəfindən onlara göstərilən daha bir qayğı kimi dəyərləndirilir. Qeyd edək ki, bu sayğacların əsas xüsusiyyəti abonentlərin təbii qazla təminatını öncədən ödəniş etməklə həyata keçirməkdən ibarətdir. Naxçıvan şəhərinin müxtəlif məhəllələrində təmir edilmiş ictimai yaşayış binaları və fərdi yaşayış evləri yeni sayğaclarla təchiz olunur.

Əhali qrupu üzrə təbii qaz istehlakçılarının mavi yanacaqdan müasir standartlara cavab verən texnologiyalar vasitəsilə istifadəsi məqsədilə Naxçıvan şəhərində ön ödənişli smartkarttipli qaz sayğaclarının quraşdırılması davam etdirilir. "Naxçıvanqaz" İstehsalat Birliyindən aldığımız məlumata görə, indiyədək Naxçıvan şəhərində 14 mindən çox sayğac quraşdırılıb. Sayğacların kənar müdaxilələrdən mühafizəsi də diqqətdə saxlanılıb. Bu məqsədlə qutular alınıb. Sayğacların hər biri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçirilərək quraşdırılır.

**Xəbərlər şöbəsi**

# Naxçıvanda elm artıq avtonom deyil

## İqlimə düzəlişlər



*Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov qeyd edir ki, bu kiçik dağlıq ərazidə hər şey – bitki və heyvanat aləmi, təbii zona toplumu (yarımsəhralar, çöllər, alp çəmənlikləri, meşələr) və hətta "Naxçıvan iqlimi" çox fərqlidir.*

Həqiqətən, bu termini ilk olaraq iqlimşünas İvan Fiqurovski (1865-1940) təklif etmişdir. Tbilisi, Bakı və Gəncədə işləyərkən alim Qafqazın iqlim rayonlaşması problemi ilə məşğul olmuş və Naxçıvan üçün əsas meteoelementlərin paylanmasını bir sıra səbəblər: onun coğrafi vəziyyətinə görə Xəzər dənizinə və Qara dənizə yaxınlığı, dağ silsilələrinin yamaclarında və Cənubi Qafqaz yaylasının vadilərində yerləşməsi; 600 metrdən 3904 metrədək hündürlükdən tökülən gur şəlalələr; havanın hərarətinin qışda -39° C-dən yayda +45° C-dək dəyişməsini ekstremal amplituda üzündən qeyri-adi hadisə olduğu nəticəsinə gəlmişdir. Sadalananlara İran səmtindən əsən qumsal külәkləri, intensiv Günəş radiasiyasını və yağıntıların çox az miqdarda olmasını da əlavə etsək, "Naxçıvan iqlimi" haqqında tam təsəvvür əldə edə bilərsiniz. İqlim isə Tariyel Talıbovun rəhbərlik etdiyi institutun öyrəndiyi landşaftlara, torpağa, həm də təbii ehtiyatlara təsir edir.

– Bizim fauna və floramız Azərbaycan Respublikasının biomüxtəlifliyinin 60 faizini təşkil edir, həm də özünün nadirliyi ilə fərqlənir, – deyə akademik öz fikrini davam etdirdi.

– Bəbirləri siz daha harada görə bilərsiniz? Biz isə öz bəbirlərimizi tamamilə tanıyırıq. Onların fotomonitorinqini keçirmiş, videoya çəkmişik. Pişiklər ailəsindən olan nisbətən kiçik vəhşi heyvanlar da ərazimizdə vardır: vaşaq, meşə pişiyi, çöl pişiyi, mamul kimi yırtıcı heyvanlar çox nadir hesab olunurlar. Dırnaqlıların yerli növləri – muflonlar, bezoar keçiləri (yeri gəlmişkən bunlar bəbirlərin əsas qida obyektləridir) də vardır. Burada Xəzər uları (dağ hind toyuğu), gözəl kəklik, səhra kəkliyi, boz kəklik də yayılmışdır. 2001-ci ildən başlayaraq bu heyvanların və digər quşların ovlanmasına qadağa qoyulmuşdur.

– Biz öz təbiətimizi sevir və ona qayğı göstəririk, – sözləri ilə direktor söhbətinə davam etdi: – Muxtar respublikanın ərazisinin dörddə bir hissəsini xüsusi mühafizə olunan təbiət əraziləri təşkil edir, Avropa ölkələrində qəbul edilmiş bu norma 8-10 faizdir. Naxçıvan Muxtar Respublikasında bir neçə yasaqlıqlar, 2003-cü ildə yaradılan Şahbuz qoruğu və Zəngəzur (keçmiş Ordubad) Milli Parkı mövcuddur. Qış aylarında bu ərazilərə duz gətirilir, qoruqdakı heyvanlar yedizdirilir. İnstitut parkların, yasaqlıqların himayəsində olduğu Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əməkdaşlıq edir.

Söhbətimiz institutun Nəbatat bağında davam etdi. Burada, 13 hektarlıq ərazidə Azərbaycan Respublikasında Qırmızı kitabın nəşrindən əvvəl hazırlanan Naxçıvan Muxtar Respublikasının Qırmızı kitabına daxil olan nadir və nəsli kəsilməkdə olan bitkilər təqdim olunur. Əlbəttə, bu məsələdə əsas məqsəd Naxçıvanın nadir florasını kağız üzərində deyil, canlı təbiətdə qorumaqdan ibarətdir. Bu məqsədlə 2 hektara yaxın ərazidə aborigen bitkilər: həmin qorunan ərazilərdən gətirilmiş və respublikanın özünəməxsus yaşıl genofondunu təşkil edən ağaclar, kollar, otlar əkilmişdir. Bunun ardınca digər regionlardan, əvvəlcə cənub regionlarından gətirilmiş bitkilərin introduksiyasına (yerli şəraitə uyğunlaşmasına) başladıq. "Gəlmələr" burada çətin iqlimə uyğunlaşma prosesini keçirlər – qışda onları şaxtadan, yayda isə Günəşin yandırıcı şüalarından qorumaq lazım gəlir. Heç də əbəs deyil ki, ağacların gövdələri əhəng məhlulu ilə ağardılır. Beləcə əsasən dekorativ 68 bitki növü üçün Naxçıvan onların ikinci vətəni oldu, bu bitkilər şəhərin küçələrini də bəzəməkdədirlər.

Burada şagirdlər, bütün respublika müəssisələrinin əməkdaşları üçün ekskursiyalar keçirilir. Floranı peşəkarcasına öyrənənlər üçün isə çöllərə, hətta dağlara və səhralara birbaşa yol vardır.

– Bizə Yeni Zelandiyadan İrlandiyayadək olan ölkələrdən il ərzində orta hesabla mütəxəssislərdən ibarət 17 ekspedisiya gəlir. Təsəvvür edin, süsənin nadir növünü tapmaq və onun şəklini çəkmək, endemik, reliktiv bitkilərin arealını axtarıb tapmaq, yaxud seleksiya sahəsində təcrübə mübadiləsi aparmaq məqsədilə kimlərsə dünyanın yarısını keçməli olur, – deyə həmsöhbətimiz bildirir.

Məsələn, Şərur rayonunda becərdilmiş iri limona baxaraq heyrətlənməmək olmur. Onunla müqayisədə Ordubad limonu daha kiçikdir, lakin bu limon Ordubad armudlarına, almalarına, gavalısına xas olan ətri ilə fərqlənir. Alimlər bunun səbəbini "bitkilərin köklərinə baxmadan" müəyyən edə bilmədilər. Aydınlaşdırıldı ki, Ordubad rayonunun torpaqlarında seolitlər (yüksək qabiliyyətli ion mübadiləli təbii kristal silikatlar) daha çoxdur. Buna görə də Nəbatat bağının meyvə ağacları olan torpaq sahələrinə seolitlər əlavə etməyə başladıq – gümanımız təsdiq edildi, nəticəni artıq meyvələrin ətrindən duymaq mümkündür.

Ən ekzotik bitkilər, aborigenlər və "qonaqlar" parnikdə toplanmışdır. Onların hər birinə öz mikroiqlimi tələb olunur. Buna görə də temperatur-nəmlik rejimi əl ilə saxlanılır. Kaktuslar (burda onların 17 növü var) üçün iqlim şəraiti bir, qəhvə və sabun ağacları üçün digər qaydada olmalıdır və hətta şimal şam ağacı buranın isti iqliminə uyğunlaşmışdır.

Muxtar respublikanın bitki zənginliyini 800 növə yaxın mövcud olan dərman bitkiləri təşkil edir. Onların 130 növündən çoxu yüzilliklər boyu xalq təbabətində istifadə olunur. Alimlər dərman bitkilərinin rəsmi qeyd olunmuş dərman preparatları, balzamlar, bioloji kremlər kimi tətbiqedilmə prosesini gücləndirməyə çalışırlar. Onlar dərman bitkilərinin yayılma zonalarını müəyyənləşdirərək yabanı olan 30-dan çox dərman bitkisinin, o cümlədən Qırmızı kitaba daxil edilmiş bitkilərin bioloji ehtiyatlarını dəyərləndirmiş, dərman bitkilərinin tərkibində olan bioloji aktiv maddələri aşkarlamışlar.

Hansı tədqiqatdan söhbət gedirsə, Tariyel Talıbov mütləq bu tədqiqatların tətbiqi cəhətlərini ayırırdı. AMEA-nın Rəyasət Heyətinin keçən il yayda Naxçıvanda keçirilən səyyari iclasında dərman bitkilərinin yığılmasını və qorunmasını qaydaya salmaq üçün muxtar respublikanın dərman bitkilərinin elektron informasiya bazasını yaratmaq, həmçinin Naxçıvanda dərman bitkilərinin ilkin emalı üzrə təcrübə zavodunun yaradılması təklif olundu.

### Ulduzlara kim nəzər yetirəcək?

Haradan baxırsan bax, indi tarixi bir dönəm ərəfəsindəyik: gələn il Cənubi Qafqazda Batabat dağında astrofizika müşahidə stansiyasının işə başlaması ilə əlaqədar Pulkovo rəsədxanasının və Kazan Dövlət Universitetinin əməkdaşlıq ekspedisiyasının yaranmasının yarım əsrlik tarixi tamam olur. Lakin İttifaq dağıldı və 1990-cı illəri əksər sovet alimləri kədərlə xatırlayırlar. Astrofizika müşahidə stansiyası üçün bu illər iğtişaşlı dövr kimi keçdi – 1997-ci ilədək stansiya faktiki olaraq sahibsiz qaldı, yalnız onun Şamaxı Astrofizika Rəsədxanasının balansına verilməsindən sonra oradan tapşırıqlar daxil olmağa başladı. Lakin Şamaxı hara, Naxçıvan hara? Yaxşı ki, astronomlar stansiyanın avadanlıqlarını, infrastrukturunu qoruyub saxlaya bildilər. Məhz əsl sahibkarlıq hissi ona gətirib çıxardı ki, 2002-ci ildə Azərbaycan rəhbərliyi AMEA-nın Naxçıvan Bölməsinin yaradılması və astrofizika müşahidə stansiyasının müstəqil elmi-tədqiqat müəssisəsinə – Astrofizika Rəsədxanasına çevrilməsi haqqında qərar qəbul etdi.

Rəsədxana üçün yer dəqiq seçilmişdir: dəniz səviyyəsindən 2,5 min metr hündürlükdə yerləşən və 2007-ci ildə məxsusi tikilmiş binaya ilə təchiz edilmiş Batabat Astrofizika Rəsədxanasında hava yayda belə həddən çox sərin olur. Yayda Bakıda isti olanda, burada temperatur 25-27°C, qışda -15° dərəcədən aşağı olmur və bu fəsildə burada insanların iştirakı, demək olar ki, hiss olunmur. İlin əksər vaxtlarında hava bu diyarda təmiz və şəffaf olur. Ətrafda tikililərə nadir hallarda rast gəlmək mümkündür. Rəsədxananın günbəzində gecəyarısı saatlarında kəsik əmələ gəlir və "KARL seyss" firmasının istehsalı olan 60 sm diametrlik orta ulduz teleskopu öz güzgülərini səmaya yönləndirir.

Rəsədxanaya 1979-cu ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən və Moskvada təcrübə keçdikdən sonra işləməyə gələn rəsədxananın direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Qulu Həziyevin söylədiyi kimi, burada mütəxəssislər Günəş sisteminin kiçik obyektlərini – komet və asteroidləri öyrənir, kometlərin təhlükəsizliyi ilə məşğul olurlar.

Əvvəllər bu mövzunu daha çox xəyalpərəstlər müzakirə edirdilər, indi isə belə obyektlərin bizim planetimizlə toqquşmasının qarşısını almaq üçün real imkanlar yaranmışdır. Bu imkanlar səma "yolçusunun" diametrindən, çəkisindən, trayektoriyasından asılıdır. Məqsəd təhlükəli cismin istiqamət hərəkətini dəyişdirməyə qabil olan impuls (təkan) göndərməkdən, onun istiqamətli partlayışla dağıdılmasından ibarətdir...

Qulu Həziyev onu da bildirdi ki, Batabat Astrofizika Rəsədxanasında parlaq ulduzlar olan Protsion və Arktur öyrənilir. Onlar haqqında alınmış göstəriciləri Günəş haqqında mövcud məlumatlarla müqayisə edərək alimlər bizim işıq mənbəyinin tarixini dəqiqləşdirirlər. Beləliklə, müəyyən olunmuşdur ki, 4 milyard il bundan əvvəl Günəş daha az istilik verirdi, gənc ulduzlar bu qədər fəal deyildi, lakin zaman-zaman görünən işığın nəhəng partlayışları onlara xas olmağa başlamışdır.

Qulu Həziyev teleskopun yanına qalxır ki, onun əvvəllər əl ilə necə idarə olunduğunu bizə göstərsin. İndi teleskopun hərəkəti və müşayiətetmə prosesi tamamilə avtomatlaşdırılmışdır. Bütün idarəetmə kompüter vasitəsi ilə həyata keçirilir. Bu avtomatlaşdırmanın və idarəetmə proqramının təmin edilməsinə Moskva Dövlət Universitetinin P.K.Ştenberq adına Dövlət Astronomiya İnstitutu və Krım rəsədxanasının mütəxəssisləri kömək etdilər, – sağ olsunlar, hələ sovet dövründə Moskvada təcrübə keçərkən yaranmış əlaqələr qorunub saxlanmaqda və inkişaf etməkdədir. Moskvalı həmkarlarımız buraya, bizim dağlara gəlmiş və rəsədxana əməkdaşları ilə birlikdə sazlama işlərini yerinə yetirmişlər. Zaman dəyişir, müasir mərhələdə, sürətli internetin normaya çevrildiyi bir vaxtda Batabat Astrofizika Rəsədxanasının göstəricilərindən digər ölkələrin alimləri də istifadə edirlər. Bu yaxınlarda dünyanın ən nüfuzlu astronomik nəşrlərindən olan Oksford Universitetinin "Monthly Notices of the Royal Astronomical Society" jurnalında Batabat Astrofizika Rəsədxanasının elmi işlər üzrə direktor müavini, dosent Azad Məmmədlinin və MDU P.K.Ştenberq adına Dövlət Astronomiya İnstitutunun böyük elmi əməkdaşı Səfər Həsənovun məqaləsi dərc olunmuşdur. Məqalədə onlar passiv hərəkət edən cismin mərkəzi sınaq ulduzu cisminin yaxınlaşması zamanı fəza hərəkəti haqqında məsələni araşdırmışlar...

### Yeraltı təkanları dinləyərək

Keçən ilin sonlarından AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun seysmoloji xidmətindən onlarla dünya mərkəzlərinə respublika ərazisində tektonik hadisələr haqqında məlumatlar daxil olmağa başlamışdır. Bu onun hesabına baş vermişdir ki, alimlər ən müasir avadanlıqları və Kinemetriks (ABŞ) şirkətinin seysmoloji cihazlarının iş prinsiplərini lazımınca mənimsəmişdilər.

İndi institutun mühəndis və alimləri təkcə kompleks seysmoloji, geofiziki, geokimyəvi və geodinamik tədqiqatlar aparmır, həm də onlayn rejimində alınmış məlumatları və göstəriciləri Bakıya, AMEA-nın Respublika Seysmoloji Xidmət Mərkəzinə ötürürlər.

***– Bu, zəlzələnin daha yaxşı proqnozlaşdırılmasına kömək edirmi?***

– Suala cavabında əvvəllər fizika müəllimi işləmiş, hazırda isə Seysmoloji xidmət mərkəzinin müdiri İlkin Vəlibəyov izah edir ki, hələlik insanlar zəlzələlərin baş verməsinin qabaqcadan proqnozlaşdırılmasına nail olmayıblar, baxmayaraq ki, bütün dünya tədqiqatçıları bu məqsəd üçün çoxdan öz güclərini birləşdirmişlər.

***– Yeni avadanlıqlar nə dərəcədə həssasdırlar – ağırtonnajlı Kamaz 20 metr məsafədə getdikdə cihazlar onun hərəkətini yeraltı təkan kimi qəbul edə bilərlərmi?***

– Proqram təminatının köməyi ilə tektonik hadisələri antropogen təsirlərdən əla şəkildə fərqləndirmək mümkündür, texnika bu gün həddən artıq dəqiq şəkildə baş verən sapmaların dərinliyini, istiqamətini və haradan qaynaqlandığını göstərə bilir.

***– Bu diyarda axırıncı zəlzələ çoxdanmı olmuşdur? – sualını verərkən yeraltı təkanların ən azı beş il əvvəl olduğu ümidində idik.***

– Bu gün saat 7:43 dəqiqədə Türkiyə ilə İran sərhədində zəlzələ baş vermişdir. Hiss etmədinizmi? Bundan iki həftə əvvəl isə Azərbaycanla İran sərhədində yeraltı təkanlar olmuşdur. Hər iki halda təkanlar 3 bal gücündə olmuşdur. Əlbəttə, insanlar 3 bal gücündəki titrəmələri hiss etmir, bunu yalnız cihazlar qeydə alır. Lakin istənilən titrəmələr yollar və tikililər üçün heç də təhlükəsiz deyillər, buna görə də bizim respublikamızda iki mərtəbədən artıq binaların tikintisi zamanı inşa layihəsinə seysmoloqların rəylərinin alınıb əlavə edilməsi tələb edilir. Seysmoloqlar əmin olmalıdırlar ki, inşaat zamanı binaların doqquz bal gücündə zəlzələyə davamlılığı üçün tədbirlər nəzərdə tutulmuşdur.

Xoşbəxtlikdən son illərdə Azərbaycanda belə güclü tektonik təkanlar müşahidə edilməmişdir. Məhz 1902-ci ildə Şamaxıda 6.9 bal gücündə zəlzələ olmuşdur və minlərlə insan həyatını itirmişdir. Yeraltı təkanlar Azərbaycanda neft emalı sənayesinin yaradılması ilə məşğul olan Nobel qardaşlarını ölkəmizin ərazisində ilk üç seysmoloji stansiyanın təcili təşkil olunmasına və cihazlar vasitəsi ilə seysmoloji müşahidə aparılmasına məcbur etdi. İndi peyk rabitəsi ilə birləşdirilmiş belə stansiyaların sayı 35-dir və bir neçə, o cümlədən Xəzər dənizinin dibində neft platformalarının fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə stansiyaların seysmoloji avadanlıqlarla təchiz edilməsi planlaşdırılır.

### Daş dövründən salam

...Naxçıvanın qədim torpağında insanlar hələ Daş dövründə yaşayıblar. Arxeoloji ekspedisiyaların tapıntılarının toplandığı muzeydə bizim bələdçimiz AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev idi.

– Respublikamızın tarixinə və mədəniyyətinə maraq çox böyükdür, il ərzində 10-dək arxeoloji ekspedisiya fəaliyyət göstərir. 2006-cı ildən Azərbaycan-Amerika və Azərbaycan-Fransa ekspedisiyası işləyir. 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi ilə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası yaradılmışdır. Yeri gəlmişkən, ekspedisiyaların bütün tapıntıları respublikada saxlanılır, – alim bunu söylədi və bizim diqqətimizi onlardan birinə – Oğlanqala yaşayış sahəsinin yaxınlığında aşkar edilmiş, eramızdan əvvəl VIII-VII əsrlərə aid olan mixi yazılı keramika (saxsı) nümunəsinə yönəltdi. Bildirdi ki, bu yazı Urartu və Assuriya yazılarından fərqlənir.

Azərbaycan-Amerika ekspedisiyası bu obyekti öyrənərək müəyyən etdi ki, Şərur rayonunun ərazisində, mərkəzi Oğlanqalada olmaqla güclü şəhər-dövlət mövcud olmuş və Etiuni konfederasiyası ilə birlikdə Urartuya qarşı mübarizə aparmışdır. Ekspedisiyanın fəaliyyəti ABŞ-ın Pensilvaniya Universiteti tərəfindən yaradılmış saytda *www.oğlanqala.net* işıqlandırılır. Onun üzvləri Naxçıvan arxeoloji abidələrinin GPS qeydiyyatına başlamışlar.

*Ardı 4-cü səhifədə*

Muzeydə ayrıca guşə son illərdə Babək rayonunun Kültəpə kəndində tədqiqat aparan Fransa-Azərbaycan ekspedisiyasının səhra işlərinə həsr olunmuşdur. Ekspedisiyanın göstəricilərinə görə, Fələstindən Suriyayadək geniş ərazidə yayılmış Kür-Araz mədəniyyəti məhz Naxçıvanda formalaşmışdır. Kültəpə ətrafında 50-dən artıq abidə qeydiyyata alınmış və xəritə üzərinə keçirilmişdir. Onlardan 3-ü Neolit dövrünə, 20-dən çoxu isə Eneolit dövrünə aiddir.

Vəli Baxşəliyev bizi Babək rayonunun Cəhri kəndi yaxınlığında tapılmış XVIII əsr əyirici dəzgahının yanına gətirdi və bu dəzgahda insanların necə yun əyirdiklərini nümayiş etdirdi, sanki özü bu işlərin şahidi olmuşdur.

Bölmə alimləri Naxçıvan Dövlət Universitetinin əməkdaşları ilə birgə 1200-dən çox tarix və mədəniyyət abidəsi aşkarlamış və öyrənmişlər. Axtarışların nəticələri onlarla monoqrafiyada, yüzlərlə məqalə və profil saytlarında şərh edilmişdir. Vəli Baxşəliyevin rəqəmlərlə möhkəmləndirilmiş söhbəti bizi inandırdı ki, respublika ərazisində arxeoloji tədqiqatlar sistemli xarakter daşıyır, regionun, Azərbaycanın və bütövlükdə Qafqazın tarixini tamamlayır və zənginləşdirir.

Aydındır ki, tarixi-mədəni irsin tədqiqi ilə yanaşı, onun qorunub saxlanması üçün də tədbirlər görülür. Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksi, Culfa rayonundakı Xanəgah Türbə Kompleksi, Naxçıvan şəhərindəki Xan sarayı, Ordubad rayonundakı Buzxana və bu kimi abidələr üzərində təmir-bərpa işləri aparılmışdır. Bu işlər Naxçıvanın əyilməzlik simvoluna çevrilmiş Culfa rayonundakı Əlincəqalada da aparılmışdır.

– ***Bəs rusiyalı alimlərlə əməkdaşlıq nə vəziyyətdədir? Axı XIX əsrin 70-ci illərində bu torpağın arxeoloji abidələri rus tədqiqatçılarını özünə cəlb edirdi…***

– Rusiya Elmlər Akademiyasının Sankt-Peterburqdakı Maddi Mədəniyyətlər Tarixi İnstitutu ilə elmi informasiya mübadiləsi səviyyəsində sıx əlaqə saxlayırıq, – deyə Vəli Baxşəliyev aydınlaşdırdı və sözünə davam etdi: – Bu əlaqələri daha da canlandırmaq, onları maddiləşdirmək və birgə ekspedisiyalar keçirmək niyyətindəyik. Gördüyünüz kimi, bizim fəaliyyət sahəmiz çox genişdir.

***Tədqiq olunanlar nəşr edilmişdir***

...AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin binasının muzeylə qonşu olan otağında bizə əvvəlcə elə gəldi ki, kitabxana yerləşdirilmişdir. Əslində isə bu, bölmə əməkdaşları tərəfindən dərc edilmiş nəşrlərin sərgisidir. Müxtəlif cildli kitablar, broşürlər və jurnalların düzüldüyü rəflər, həqiqətən, kitabxananı xatırladır. Yalnız ötən ildə bölmə alimləri tərəfindən 18 kitab, 740-dan çox məqalə (onlardan 22-si beynəlxalq jurnallarda), 19 monoqrafiya və üçcildlik "Naxçıvan tarixi" işıq üzü görmüşdür.

Bu "kitabxananın" bütöv bir rəflərində təvazökarlıqdan susmağı üstün bilən Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyevin əsərləri sərgilənir. Yalnız jurnalistlərin təkidli xahişindən sonra akademik kollektiv nəşrlərdə öz töhfəsi haqqında məlumat verdi. Məlum oldu ki, təkcə 2015-ci ildə onun 1 monoqrafiyası, 1 kitabı, 25 məqaləsi və elmi rəhbərliyi altında "Naxçıvan tarixi" çap olunmuşdur, həm də o, üçcildliyin giriş məqalələrinin və fəsillərin dördünün müəllifidir.

Səfərimizə yekun vuraraq biz qərara gəldik ki, "Naxçıvanın iqlimi", sadəcə, özünün kontinentallığı ilə seçilmir. "Naxçıvanın iqlimi" həm də muxtar respublika alimlərinin əhval-ruhiyyəsini və həyat tərzini müəyyən edən əsas açar anlayışdır. Bir tərəfdən siyasi kataklizmlər nəticəsində muxtar respublika Azərbaycandan təcrid olunmuş, digər tərəfdən bu ərazi görünməyən, lakin möhkəm tellərlə Azərbaycanla bağlıdır. Bu bağ – xalqın dərin köklü genetik əlaqəsidir. Bu əlaqələr hava yolu, internet şəbəkəsi və əlbəttə ki, sərhəd bilməyən elmi kommunikasiya vasitəsilə həyata keçirilir.

**Yelizaveta PANORİNA,**
**Arkadiy SOSNOV**
***"Poisk" ("Axtarış") qəzeti,***
***№ 51, 23 dekabr 2016-cı il***

***Memarlıq incilərimiz***

# Dünənin məktəbi bu günün abidəsidir

**Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad təkcə təbii gözəllikləri, relyefi, flora və faunası ilə deyil, həmçinin tarixilik və memarlıq baxımından ekzotik abidələri ilə göz oxşayır. Ordubadın elə məhəlləsi yoxdur ki, orada tarixin sirli nəfəsi duyulmasın. Qoca və əsrarəngiz çinarlar keşiyini çəkir bu diyarın…**

**Ordubad ərazisində orta əsrlərə aid Cümə məscidi, Qeysəriyyə, Eyvaz türbəsi, Zorxana və sair tarixi-memarlıq abidələri var. Bu abidələr Azərbaycan memarlığının dəyərli nümunələri, möhtəşəm sənət əsərləridir.**

***Eyvaz türbəsi***

Belə abidələrdən olan Ordubad şəhərinin cənub hissəsində, Pir Eyvaz qəbiristanlığının şimal tərəfində yerləşən, el arasında "Eyvaz türbəsi" adı ilə tanınan memarlıq abidəsi xüsusilə diqqətimizi cəlb etdi.

Öyrəndik ki, Pir Eyvaz daşıdığı tituldan (pir) göründüyü kimi, məşhur sufi şeyxi olub. O, Ordubad şəhərində Bəktaşi xanəgahı yanında dəfn edilib, qəbrin üstündə türbə tikilib. Qəbrin üstündə bir-birinə bərkidilmiş mərmər başdaşı parçalarının üzərində olan kitabə qalıqlarında sufiliklə bağlı bəzi terminlər həkk edilib. Türbənin cənubundakı "Pir Eyvaz" qəbiristanlığı həmin qəbrin xatirəsinə burada dəfn mərasimləri hesabına yaranıb. XVI əsrə aiddir. XX yüzilliyin 80-ci illərində dağıdılıb.

Digər maraqlı bina isə Ordubad mədrəsəsidir.

***Ordubad mədrəsəsi***

*Məhəmməd Tağı Sidqi və Məmməd Səid Ordubadi burada təhsil alıb.*

1714-cü ilə, Səfəvi hökmdarı Şah Sultan Hüseynin hakimiyyəti dövrünə aid olunan Ordubad mədrəsəsi zəmanəmizədək salamat vəziyyətdə gəlib çatmış yeganə klassik mədrəsə nümunəsidir. Mədrəsə orta əsrlərdə ölkəmizin ən mühüm mədəniyyət və təhsil müəssisələrindən biri olub, dövlət aparatının yüksək vəzifəli adamları tərəfindən himayə və idarə



edilib. Onun fasadındakı kaşı üzərində yazılardan bəlli olur ki, hicri 1126, miladi 1724-cü ildə Ordubadda çoxlu savadlı adam olub, xüsusilə də tanınmış alim Məhəmməd İbrahim Nadir şahın diqqətini çəkib və burada dövlət üçün zabit kadrlar hazırlayan mədrəsə tikdirib. Məktəb ikimərtəbəli olub, həyətindəki yeraltı hamam sonralar uçub-dağılıb, yerində başqa binalar inşa edilib.

Bir mənbədə oxuyuruq: "Mədrəsənin müdiri Məhəmməd İbrahim çox çəkmədən öz yetirmələri ilə birlikdə Nadir şahla səfərlərə çıxmışdı. Həmin yürüşlər zamanı beş qonşu dövləti birləşdirən böyük bir imperiya yaradılmışdı. Bu imperiya Hindistana qədər gedib çatmışdı. Axırda isə Nadir şahın qoşunları Dehli şəhərini işğal etmişdi. Yorucu yürüşlər və yoluxucu xəstəlik nəticəsində Məhəmməd İbrahim vəfat edir. Onu Ordubadın "Malik İbrahim" qəbiristanlığında dəfn edirlər. Qəbrinin daşını isə bütün kitabələrdən fərqli yaradırlar. O zaman gözəl sinədaşlarını əgər ikiqat işləmə ilə vermişdilərsə, onun qəbir daşını beşqat işləmə ilə oyma şəklində düzəltmişlər. Daşın yanında beş ölkənin birləşdirilməsinə dair sözlər yazılmış və onu alqışlamışlar. Axırda isə Nadir şahın Dehlidə olmasını yazıb həkk etmişlər.

Sözügedən mədrəsə Azərbaycan Rusiyanın tərkibinə daxil edildikdən sonra da öz fəaliyyətini davam etdirmiş, məktəbdə dini və təbiət elmlərinin öyrədilməsi həyata keçirilmişdir".

Fəaliyyət göstərdiyi bütün dövrlərdə mədrəsə şəhərin sosial-iqtisadi həyatında əhəmiyyətli rol oynayıb. Məlumat üçün bildirək ki, görkəmli pedaqoq Məhəmməd Tağı Sidqi burada təhsil alıb.

Sovet hakimiyyəti qurulanadək fəaliyyət göstərən Ordubad mədrəsəsində "Ordubadi" nisbəsi ilə tanınmış bir sıra görkəmli şəxsiyyətlər də təhsil alıblar. Onlardan biri də böyük yazıçı-publisist və ictimai xadim Məmməd Səid Ordubadi olub.

Tədqiqat işimizlə bağlı olaraq apardığımız araşdırmalarda biz də Naxçıvan və Ordubad mədrəsəsi haqqında bir çox mənbədə bəhs edildiyini gördük. XII əsrdə mədrəsələr, əsasən, Təbriz, Marağa, Naxçıvan və Gəncə şəhərlərində mərkəzləşmişdi. Atabəylər dövləti dövründə Naxçıvanda 2 ali mədrəsə fəaliyyət göstərib. XIII əsrdən başlayaraq Naxçıvanda çoxlu saray, mədrəsə ilə yanaşı, məscidlər də tikilib. Mənbələrdə bu dövrdə Möminə xatın və eləcə də başqa mədrəsələrdə çalışan müəllimlər və tələbələr haqqında məlumatlar vardır. Onların birgə əməyi sonrakı dövrlərdə yaranacaq böyük mədəniyyətə təməl olub. Şübhəsiz ki, Naxçıvanda yaradılan təlim-tədris ocaqları hələ o dövrlərdən başlayaraq Azərbaycanda təhsil sisteminin inkişafına müsbət təsir göstərib.

Bu da qədim dövrlərdən etibarən Naxçıvan torpağının mədəniyyətin və elmin beşiyi olduğunu sübut edir.

**Nərgiz İSMAYILOVA**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər neçə gün ərzində və hansı qaydada olduğu yer üzrə qeydiyyata alınmalıdırlar?***

***Cavab:*** Azərbaycan Respublikası ərazisində 10 gündən artıq qalmaq istəyən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəyə daxil olduğu vaxtdan 10 gün ərzində qeydiyyata alınmalıdırlar. Bunun üçün əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qaldığı yerin (mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və ya digər belə ictimai yerlər) müdiriyyəti və ya mənzilin, digər yaşayış sahəsinin sahibi əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə gəldiyi vaxtdan 10 gün ərzində həmin şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi və onun pasportunun (digər sərhədkeçmə sənədinin) surətini internet informasiya ehtiyatı (www.migrasiya.nakhchivan.az), elektron poçt (miqrasiya@nakhchivan.az) vasitəsilə və ya şəxsən Dövlət Miqrasiya Xidmətinə təqdim etməlidir.

***Sual:*** ***Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata düşməklə ölkəyə gəldikləri vaxtdan Azərbaycan Respublikası ərazisində neçə gün qala bilərlər?***

***Cavab:*** Viza əsasında gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər vizada göstərilən qalma müddətində, viza tələb olunmayan qaydada gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 90 gün qala bilərlər.

***Sual:*** ***Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yerdən getdikdə və olduğu yeri dəyişdikdə nə etməlidirlər?***

***Cavab:*** Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yerdən getdikdə, qəbul edən tərəf və ya şəxs özü bu barədə Dövlət Miqrasiya Xidmətinə məlumat verir və bu məlumat əsasında onlar olduğu yer üzrə qeydiyyatdan çıxarılırlar. Qeydiyyat müddəti başa çatdıqda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qeydiyyatdan çıxarılmış hesab edilirlər.

Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduğu yeri dəyişdikdə, o, yenidən olduğu yer üzrə qeydiyyata alınmalıdır.

***Sual:*** ***Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin olduğu yer üzrə qeydiyyatı ilə bağlı nə qədər dövlət rüsumu tələb olunur?***

***Cavab:*** Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin olduğu yer üzrə qeydiyyata alınması ilə bağlı heç bir dövlət rüsumu tələb olunmur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

# Ustad dərsləri davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Şəhər Ə.Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində müəllim və şagirdlər üçün ustad dərsi keçilib.*

Dərs başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Leyla Əlimərdanova bildirib ki, ustad dərslərin keçilməsində əsas məqsəd tədrisin keyfiyyətinin yüksəldilməsinə, şagirdlərin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsinə nail olmaqdır. Qeyd edilib ki, budəfəki ustad dərsi rəsm fənnindən "Plakat janrında sülh" mövzusundadır.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nizami Alıyev, Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllimi Ələvsət Allahverdiyev, Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru Hökümə Məmmədli müəllim və şagirdlərə plakat janrı haqqında məlumat veriblər. Bildirilib ki, plakat təşviqat, reklam, məlumat, yaxud tədris vəsaiti kimi yaradılır, çox zaman ictimai yerlərdə asılır. Plakat qrafikanın geniş yayılmış növüdür. Mətn və təsvir arasında üzvi vəhdətin olması plakatın əsas şərtidir. Plakat orta əsrlərdə meydana gəlib, əvvəl Qərbi Avropada, sonralar isə Rusiyada yayılıb. Plakatlar bəzən reklam xarakteri də daşıyır. XIX əsrin sonlarında bu janr Fransada geniş inkişaf edib.



Qeyd olunub ki, XX əsrin başlanğıcında demokratik hərəkat və sülh uğrunda mübarizə ilə bağlı siyasi plakatlar meydana gəlib. Xüsusilə Fransa və Almaniyada Birinci Dünya müharibəsi illərində sülh mövzusunda təşviqat plakatları geniş yayılıb. Sonralar xalqların irtica və faşizm uğrunda mübarizəsində plakatdan geniş istifadə edilib ki, bu da janrın populyarlaşmasına səbəb olub. İkinci Dünya müharibəsində isə antifaşist müharibədən sonra sülhü müdafiə mövzusunda plakatlar yaradılıb. Plakat janrından bu gün də geniş istifadə edilir.

Vurğulanıb ki, Azərbaycanda da görkəmli rəssamlarımız Əzim Əzimzadənin, Qəzənfər Xaliqovun, Oqtay Sadıqzadənin, Elmira Şahtaxtinskayanın və başqalarının bu janrda diqqətəlayiq əsərləri var. Bu gün də rəssamlarımız bəşəriyyətin bəlası olan separatizm, terrorizm, narkomaniya, müharibə mövzularında plakatlar yaradırlar.

Ustad dərsdən sonra müəllim və şagirdlər üçün sülh mövzusunda plakat çəkilib və onların sualları cavablandırılıb.

**Əli RZAYEV**

***Bildiriş***

"Cahan-Trans" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN - 0200625801) fəaliyyətini dayandırdığından ləğv olunur.

***İtmişdir***

Kəngərli rayonunun Qıvraq qəsəbə sakini Mustafayev İqbal Müzəffər oğlunun adına verilmiş 1080130005057 reyestr nömrəli plan-ölçü və çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 93